

*Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir.*

*Heydər Əliyev*

# MÜBARİZ KEŞİKDƏ

12 dekabr 2019-cu il
Cümə axşamı

№ 48 (3463)

www.mk.mia.gov.az

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BAKUTEL-2019" SƏRGİSİ İLƏ TANIŞ OLUB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva dekabrın 4-də Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi – "Bakutel-2019" ilə tanış olublar.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və "Caspian Event Organisers" şirkətinin region üzrə direktoru Edvard Stroun dövlətimizin başçısına və birinci xanıma 25 illik yubileyini qeyd edən builki sərgi haqqında məlumat veriblər.

Dövlətimizin başçısı və birinci xanım İnnovasiyalar Agentliyinin stendi ilə tanış olublar. Burada agentliyin fəaliyyəti haqqında məlumat verilib.

Dövlətimizin başçısına Azərbaycanda startapçılar üçün yaradılan şərait barədə məlumat verilib. Bildirilib ki, İnnovasiyalar Agentliyi bütün regional startaplara Azərbaycanda öz şirkət nümayəndəliklərini qeydiyyatdan keçirməyə, yerli mütəxəssislərdən ibarət komanda formalaşdırmağa, məhsullarını adaptasiya etməyə və kommersiyalaşdırmağa kömək göstərir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "AzInTelecom"un stendində də təqdim olunan yeniliklərlə tanış olublar.




"Azərmarka" MMC-nin stendində markalı kitablar, bu il ərzində tədavülə buraxılan poçt markaları, suvenirlər təqdim edilir.

Dövlətimizin başçısı və birinci xanım poçt markalarını möhürləyiblər.

*****

Prezident İlham Əliyev sərgidə Rusiyanın "Rossiya 24" televiziya kanalına müsahibə verib.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərginin "ROBOPARK" sahəsində təqdim olunan yeniliklərlə tanış olublar. Məlumat verilib ki, burada 20-dən çox interaktiv və əyləncəli proqramlaşdırma, həmçinin dronlar üzrə biliklər təqdim olunur.

Eyni zamanda, sərgidə müxtəlif robotlar da nümayiş etdirilir.

Dövlətimizin başçısı və birinci xanım robotların danışığını dinlədilər və Azərbaycan musiqisi altında rəqsinə tamaşa ediblər.

Daha sonra dövlətimizin başçısına "Bakı Taxi" MMC-nin yeni elektrik mühərriki ilə işləyən avtomobil modeli barədə məlumat verilib. Bildirilib ki, elektrik enerjisi ilə işləyən yeni taksilər ekoloji cəhətdən zərərsizdir. Avtomobillərdə USB portlar, wifi və GPS quraşdırılıb.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞAMAXI RAYONUNA SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun Şamaxı rayonu ərazisindən keçən 101-117-ci kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışında iştirak edib.

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxıda "ASAN Həyat" kompleksinin açılışında iştirak edib.

Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsib.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev kompleks barədə dövlətimizin başçısına məlumat veriblər.

Sonra Prezident İlham Əliyev kompleksin əməkdaşları ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

*****

Daha sonra Prezident İlham Əliyev "ASAN Həyat" kompleksinin tərkibindəki "ABAD Food Hall"un fəaliyyəti ilə tanış olub.

Dövlətimizin başçısı burada yaradılmış iaşə mərkəzi və istirahət-əyləncə guşəsinə də baxıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı şəhərinin mərkəzindəki Heydər Əliyev mədəniyyət və istirahət parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Dövlətimizin başçısı müvafiq tapşırıqlarını verib.

Dekabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şamaxı rayonunda zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasında yaradılmış şəraitlə tanış olub.

Prezident İlham Əliyev Fərdar Həsənovun mənzilində yaradılan şəraitlə maraqlanıb.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 6-da Azərbaycanın filosof şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə mütəfəkkirin anadan olduğu Şamaxı rayonunda keçirilən ağacəkmə aksiyasında iştirak ediblər.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən bu aksiya çərçivəsində bir gündə ölkəmizdə 650 min ağac əkilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ağac əkiblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 6-da Şamaxıda Şahxəndan türbəsinin ətrafında aparılan abadlıq işləri ilə tanış olublar.

Prezident İlham Əliyev təmir-bərpa işlərinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıqlarını verib.

# İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ KRALI II ABDULLAH İBN AL HÜSEYNİN AZƏRBAYCAN RESPUBLİKASINA RƏSMİ SƏFƏRİ

Dekabrın 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gələn İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Kral II Abdullahın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev İordaniya Kralı II Abdullahı qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi İordaniya Kralına raport verib.

İordaniya Kralı Azərbaycan əsgərlərini salamlayıb.

Prezident İlham Əliyev və Kral II Abdullah fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

İordaniyanın və Azərbaycanın dövlət himnləri səslənib.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Kral II Abdullaha, İordaniya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olunub.

Dekabrın 10-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İordaniya Haşimilər Krallığının Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn ilə təkbətək görüşü olub.

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva dekabrın 4-də milli musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Məmmədovun evində qonaq olub.***

**Ölkəmizin rəhbəri dekabrın 4-də Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Dekabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyev Rüstəm Xəlilovun Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovun Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib.***

❖❖❖❖❖

**Dekabrın 5-də ölkəmizin rəhbəri Beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 5-də xalq artisti Əlibaba Məmmədovun 90 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı dekabrın 5-də Məhəmməd Hadinin 140 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri dekabrın 5-də Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Dekabrın 5-də Azərbaycan Prezidenti İlham Əliyev bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dekabrın 5-də dövlətimizin başçısı Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin (TRASEKA) 20 illik fəaliyyətinə həsr olunmuş yubiley konfransının iştirakçılarını təbrik edib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 9-da Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı İlham Əliyev dekabrın 9-da Odessa şəhərində kollecdə baş vermiş yanğın nəticəsində insan tələfatı ilə əlaqədar Ukraynanın Prezidenti zati-aliləri cənab Vladimir Zelenskiyə başsağlığı teleqramı göndərib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri dekabrın 9-da Keniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Uhuru Kenyattaya təbrik məktubu göndərib.**

# UĞURLARIMIZIN BANİSİ

Ulu öndərin rəhbərliyi ilə güc strukturlarının, o cümlədən daxili işlər orqanlarının birgə əlaqəli, səmərəli əməliyyat-axtarış tədbirləri, istintaq hərəkətləri nəticəsində respublikamızın ərazisində qısa zaman kəsiyində yüzlərlə quldur dəstə, təhlükəli cinayətkar zərərsizləşdirildi, əhalidə qanunsuz saxlanılan xeyli odlu silah-sursat yığılaraq təhvil verildi ki, bu da 1995-ci ilin yarısından Azərbaycanda sabitliyi, əmin-amanlığı bərpa etməyə, kriminogen durumu tam nəzarətə götürməyə imkan verdi...

# XALQIN XİLASKARI

Tarixdə o xalqlar adını dünyanın xoşbəxt xalqları siyahısına yaza bilir ki, tufanlarla üzləşəndə, qaranlıq gecədə səmtini itirib qorxunc dalğaların əlində oyuncağa dönmüş gəmiyə çevriləndə buludların arasından günəş kimi sıyrılıb çıxan, ürəyini məşəl kimi başı üzərinə qaldırıb nurlu mayak kimi doğru yol göstərən övladı olsun. Ulu öndər Heydər Əliyev zamanın ən ağır sınaqlarında Azərbaycanı üzləşdiyimiz ən ciddi təhlükələrdən hifz edib qorumağı bacarmış xilaskardır. O, hələ sağlığında ümummilli sevginin ünvanına çevrilib əbədiyaşarlıq qazanmışdır...

*Bax səh.2.*

# UĞURLARIMIZIN BANİSİ

**Polad iradəsi, qanunsuz əməllərə qarşı barışmazlığı ilə hər cür cinayətkar qəsdlərin qarşısına sədd çəkən ümummilli lider Heydər Əliyevin yenidən ali hakimiyyətə qayıdışı Azərbaycanın, bütöv bir xalqın xilası idi.**

Hələ sovet dönəmində ömrünün mühüm bir hissəsini dövlət təhlükəsizlik orqanlarında xidmətə həsr etmiş, postsovet məkanında ilk dəfə o zamankı müttəfiq respublika DTK-nın sədri vəzifəsinə və general-mayor rütbəsinədək yüksəlmiş Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə daxili işlər orqanlarının yüksək peşəkarlığa, dünyagörüşə, hazırlığa malik kadrlarla komplektləşməsinə, dövlət idarəçiliyi sistemində DİN-nin önəmli yer tutmasına xüsusi diqqət, tələbkarlıq göstərmişdir.

Ümummilli liderimiz ali hakimiyyətə qayıtdıqdan sonra ölkədə meydan sulayan xaos və anarxiyanın, baş alıb gedən cəzasızlığın, vüsət alan cinayətkarlığın qarşısını almaq məqsədi ilə 1994-cü il aprelin 29-da DİN rəhbərliyində ciddi kadr dəyişikliyi apardı.

Ulu öndərin rəhbərliyi ilə güc strukturlarının, o cümlədən daxili işlər orqanlarının birgə əlaqəli, səmərəli əməliyyat-axtarış tədbirləri, istintaq hərəkətləri nəticəsində respublikamızın ərazisində qısa zaman kəsiyində yüzlərlə quldur dəstə, təhlükəli cinayətkar zərərsizləşdirildi, əhalidə qanunsuz saxlanılan xeyli odlu silah-sursat yığılaraq təhvil verildi ki, bu da 1995-ci ilin yarısından Azərbaycanda sabitliyi, əmin-amanlığı bərpa etməyə, kriminogen durumu tam nəzarətə götürməyə imkan verdi.

Şübhəsiz ki, cinayətkarlıqla uğurlu mübarizə və ictimai təhlükəsizliyin nümunəvi təmini zəruri hüquqi-normativ baza yaradılmadan mümkün deyildi. Mövcud reallıqlar, müstəqilliyin ilk illərində ölkədə gedən ictimai-siyasi proseslər həmin ərəfədə hüquq-mühafizə orqanlarının, o cümlədən DİO-nun fəaliyyətini tənzimləyən qanunların hazırlanaraq ölkə parlamenti tərəfindən qəbuluna imkan vermirdi. Belə bir zərurəti nəzərə alan Prezident Heydər Əliyev yeni qanunların qəbulunadək cinayətkarlıqla mübarizənin hüquqi bazası rolunu oynayacaq sənəd imzaladı. 1994-cü il avqust ayının 9-na təsadüf edən bu fərman "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi tədbirləri haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" adlanırdı. Bundan sonra "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunlar, yeni Cinayət və Cinayət-Prosesual Məcəllələri, "Daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" dövrün reallıqları, ATƏT, Avropa Şurası və digər mötəbər beynəlxalq qurumların ekspertlərinin rəyləri nəzərə alınmaqla qəbul edildi. Adı çəkilən qanunlar və məcəllələr insan hüquq və azadlıqlarının, qanunların aliliyinin əsas prioritet təşkil etdiyi indiki şəraitdə cinayətkarlıqla mübarizə və ictimai qaydanın, demokratik azadlıqların qorunması sahələrində bu gün də hüquq-mühafizə orqanlarının fəaliyyətini tənzimləyir, uğurların qazanılması üçün möhkəm hüquqi təməl rolunu oynayır.

Ümummilli liderimiz hakimiyyətdə olduğu bütün mərhələlərdə respublika daxili işlər orqanlarının fəaliyyətinə daim yüksək qiymət verib, şəxsi heyətin sosial müdafiəsinin, həyat şəraitinin daha da yaxşılaşdırılması, DİO-nun maddi-texniki təchizatı üçün önəmli addımlar atıb.

Bu gün hər yerdə ulu öndərin izini görə bilirik. Məhz buna görə də Heydər Əliyev xalqımızın ümummilli lideri adlanır və xalq öz xilaskar oğlunun xatirəsini daim əziz tutur.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*



# XALQIN XİLASKARI

**Tarixdə o xalqlar adını dünyanın xoşbəxt xalqları siyahısına yaza bilir ki, tufanlarla üzləşəndə, qaranlıq gecədə səmtini itirib qorxunc dalğaların əlində oyuncağa dönmüş gəmiyə çevriləndə buludların arasından günəş kimi sıyrılıb çıxan, ürəyini məşəl kimi başı üzərinə qaldırıb nurlu mayak kimi doğru yol göstərən övladı olsun. Ulu öndər Heydər Əliyev zamanın ən ağır sınaqlarında Azərbaycanı üzləşdiyimiz ən ciddi təhlükələrdən hifz edib qorumağı bacarmış xilaskardır. O, hələ sağlığında ümummilli sevginin ünvanına çevrilib əbədiyaşarlıq qazanmışdır.**

Hər zaman ürəyi xalqı ilə bir döyünən ulu öndər azadlıq və müstəqillik uğrunda tökülən qanların hədər getməməsi, geniş xalq kütləsinin bütün təbəqələrini bürüyən azadlıq hərəkatının real nəticələr verməsi üçün tələb olunan bütün tədbirləri görür, böyük cəsarət istəyən addımlarını tərəddüd etmədən atırdı.

O günlər uzaq keçmiş deyil. Adamlar o dövrü yaxşı xatırlayırlar. Azərbaycan "olum", ya "ölüm" qarşısında qaldığı bir vaxtda qardaş qırğını hər an gerçəkləşə bilərdi. Dövlət orqanları iflic vəziyyətində idi. Ayrı–ayrı siyasət dəllallarına məxsus silahlı qoçu dəstələri cəbhə xəttində, döyüş meydanında erməni yaraqlıları ilə savaşmaq əvəzinə Bakıda və bölgələrdə sifarişli qətllər törədir, talanlar edirdilər. Hakimiyyətə inamını itirən, ümidsizləşən adamlar, ağır da olsa, kədərli sonu gözləyirdilər…

Azərbaycan xalqının xilaskar oğlu tarixi gəlişi ilə hər şeyi yerbəyer etdi.

Azərbaycanın müasir dövlətçiliyi tarixində müstəqillik dövrünün arxada qalan hər ilinin öz yeri var. Dövlətçiliyimizin ən ağır günlərində ulu öndərimizin qətiyyəti və müdrikliyi xalqımızı və Azərbaycanımızı həmişə xilas etmiş, onun keçilməsi mümkün olmayan maneələri dahiyanə yanaşması ilə gələcək uğurlarımızın təməlinə çevirmişdir. O, demişdir: "Ağıl olan yerdə zora ehtiyac yoxdur. Tarix həmişə hər şeyi öz yerinə qoyur".

Bu nadir şəxsiyyətin iti ağlı, dərin zəkası, bitib–tükənməyən enerjisi və genişmiqyaslı təhlil bacarığı görkəmli dövlət xadimi kimi ona imkan verirdi ki, ən mürəkkəb, ən ağır, hətta çıxılmaz hesab olunan vəziyyətlərdə belə öz xalqı və vətəni üçün mümkün formalarda ən düzgününü və yaxşısını seçib, gərgin vəziyyətin lazımi istiqamətdə cərəyan etməsini təmin etsin. Bu, ulu Tanrının ona bəxş etdiyi böyük bir vergi idi. Heydər Əliyev əsl vətəndaş və böyük azərbaycanlı, canından artıq sevdiyi millətinin və torpağının əvəzolunmaz təəssübkeşi və dövlətçiliyimizin xilaskarı idi.

Bu gün hər birimiz böyük məhəbbət hissilə deyə bilərik ki, ulu öndər həyatının xoşbəxt anlarını Azərbaycanın işıqlı gələcəyinə həsr etməkdən qürur duyduğundan "Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram" –deyirdi.

Allah dünyanı və insanı yaratdı. Dünyanın tarixini yazan və yaradanlar isə insanlardır. Bu insanların həyatı, taleyi, fəaliyyəti, məqsəd və məramları çox maraqlı, qeyri-adiliklə zəngin olduğu üçün onlar haqqında daha çox öyrənmək, daha çox düşünmək, bəzən də bu şəxsiyyətləri bir-biri ilə müqayisə edib fərqləndirmək məcburiyyətində qalırıq. Tarixi yaradanlar olmasaydı onu yazanlar da olmazdı.

Dünyada tarix haqqında yazanlar çox olsa da, tarix yaradanların sayı azdır. Çünki tarix yaratmaq tarix yazmaqdan qat-qat çətin və məsuliyyətlidir.

Ulu öndər Heydər Əliyev də tarix yaradan dahi şəxsiyyətlərdəndir.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*



# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov dekabrın 5-də Kolumbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Luis Antonio Dimate Kardenası qəbul edib.**

Qonağı salamlayan nazir onu yeni təyinat münasibətilə təbrik edib və diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Nazir iki dövlət arasında siyasi, mədəni və humanitar sahələrdə əməkdaşlığın mövcudluğunu, qarşılıqlı səfərlərin bu əlaqələrin genişləndirilməsinə və inkişafına təkan verdiyini, beynəlxalq arenada Kolumbiya Hökumətinin Azərbaycanın mövqeyini hər zaman dəstəklədiyini məmnunluqla diqqətə çatdırıb.

Daxili İşlər Nazirliyi ilə Kolumbiyanın Milli Polisi arasındakı əlaqələrdən söz açan general-polkovnik V.Eyvazov transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlığın yaradılması və təcrübə mübadiləsi məqsədilə bu ölkənin asayiş keşikçilərindən ibarət nümayəndə heyətinin dörd il öncə Azərbaycanda olduqlarını, səfər çərçivəsində nümayəndə heyəti ilə DİN-də görüş keçirildiyini, onların "102" Zəng Mərkəzi Sistemi, "Təhlükəsiz Şəhər" Avtomatlaşdırılmış İdarəetmə Mərkəzi, habelə Əlahiddə Çevik Polis Alayının fəaliyyəti ilə yaxından tanış olduqlarını xatırladıb.

Problemlərə toxunularkən transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərinin, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin diqqət mərkəzində dayandığı və belə qlobal xarakterli təhlükəli cinayətlərlə səmərəli mübarizədə səylərin birləşdirilməsinin zəruriliyi nəzərə çatdırılıb.

Səfir Luis Antonio Dimate Kardenas səmimi qəbula və ətraflı məlumata görə təşəkkür edib, paytaxt da daxil olmaqla ölkəmizin bütün bölgələrində yaradılmış təhlükəsiz və əmin-amanlıq şəraitindən məmnunluq duyduğunu, respublikamızdakı diplomatik fəaliyyəti dövründə ikitərəfli əlaqələrin inkişafına öz töhfəsini verəcəyini bildirib.

*5 dekabr 2019-cu il*

# ÖNDƏR ÖMRÜ...

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 16-ci ildönümü ilə bağlı DİN-in Polis Akademiyasında da anım mərasimi keçirilib. Əvvəlcə qonaqlar və akademiyanın əməkdaşları ümummilli lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edərək Polis Akademiyasında ucaldılmış abidəsi önünə əklil qoyublar.**

Mərasim ulu öndər Heydər Əliyevin, Azərbaycanın azadlığı uğrunda canlarından keçmiş şəhidlərin və polis əməkdaşlarının xatirəsinin anılması ilə başlayıb.



Dövlət himni səsləndikdən sonra tədbiri açan rəis, polis general-mayoru Nazim Əliyev ulu öndərin siyasi fəaliyyəti, dövlət idarəçiliyindəki qətiyyəti, cəsarəti, eləcə də çoxşaxəli fəaliyyəti ilə böyük bir məktəb yaratdığını, zəngin irs qoyduğunu, onun ali hakimiyyətə qayıdışından sonra ölkəmizdə siyasi və iqtisadi sabitliyin bərqərar olduğunu, insan hüquq və azadlıqlarının təminində normativ-hüquqi bazanın yaradıldığını, konstitusiyamızın məhz onun rəhbərliyi ilə hazırlandığını, cinayətkarlığın qarşısının alınması istiqamətində mühüm nəticələr əldə edildiyini qeyd edib.

AMEA-nın Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov ulu öndərin Azərbaycan tarixinin öyrənilməsindəki əvəzsiz xidmətlərindən danışaraq onun dilimizin qorunması üçün də atdığı addımları, dövlətçiliyimizin siyasi-ideoloji əsaslarını və milli inkişaf konsepsiyasını hələ sovetlər dönəmində yaratdığını, məhz onun rəhbərliyi ilə xalqımızın öz həqiqi dövlət müstəqilliyinə qovuşduğunu xüsusi vurğulayıb.

DİN Daxili Qoşunların Ali Hərbi Məktəbinin rəisi, general-mayor İlqar Məmmədov ulu öndərin 1971-ci ildə yaratdığı Cəmşid Naxçıvanski adına hərbi liseyin ordu quruculuğumuza mühüm töhfə olduğunu deyərək, bugünkü Silahlı Qüvvələrimizin regionun ən güclü ordusu kimi formalaşmasındakı əvəzsiz xidmətlərindən danışıb.

Yeni Azərbaycan Partiyası Xəzər Rayon təşkilatının sədri Namiq Əhmədov və digər çıxış edənlər ümummilli liderimizin siyasi fəaliyyətinin, onun Azərbaycanın inkişafına yönəlmiş ideyalarının bu gün möhtərəm Prezidentimiz tərəfindən uğurla həyata keçirildiyini, ölkəmizin dünya dövlətləri sırasında öz layiqli yerini tutduğunu diqqətə çatdırıbar.



Sonra ulu öndərə həsr olunmuş sənədli film nümayiş olunub.

*Hafiz Təmirov,*
*polis mayoru*

# POLİSİMİZİN UĞURLARI ÇOX BƏYƏNİLİR

**Xarici dövlətdə ali təhsil alan Bakı şəhər sakini Cavid Məmmədli Daxili İşlər Nazirliyinə təşəkkür məktubu ünvanlayıb. O məktubunda yazır:** "Mən hazırda Böyük Britaniyada ali təhsil alıram. Burada ayrı-ayrı ölkələrin vətəndaşları və bir çox millətlərin nümayəndələri ilə mütəmadi ünsiyyətdə oluram. Tanış olduğum şəxslərin mütləq əksəriyyəti Azərbaycana səfər etmiş və dövlətimizlə, onun həqiqətləri ilə yaxından tanış olmuşlar.

Ölkəmizdə səfərdə olmuş həmin insanlardan ən çox eşitdiyim Azərbaycan Polisi haqqında xoş sözlərdir. İnanın ki, onların Azərbaycan Polisinin nümunəvi davranışı, humanistliyi, yardımsevərliyi və operativliyi barədə danışdıqlarını eşitmək bir Azərbaycan vətəndaşı kimi məni çox sevindirir və qürurlandırır".

Müəllif polisin cəmiyyətdəki nüfuzunun yüksəldilməsi, insanların etibarını qazanmış bir quruma çevrilməsi istiqamətində aparılan islahat xarakterli tədbirlərin nəticəsinin şahidi olduğunu, bu addımları çox müsbət qiymətləndirərək alqışladığını qeyd edir, DİN rəhbərliyinə və şəxsi heyətə çətin və şərəfli işlərində uğurlar arzulayır.

*Natiq Cavadov,*
*polis mayoru*

# POLİSLƏRİMİZ 11.400 AĞAC ƏKDİ






Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar bir gündə 650 min ağacın əkilməsi təşəbbüsü çərçivəsində keçirilən ağacəkmə kampaniyasında Daxili İşlər Nazirliyinin və onun yerli qurumlarının şəxsi heyəti də fəal iştirak ediblər.

Belə ki, dekabrın 6-da daxili işlər orqanlarının şəxsi heyəti tərəfindən paytaxtımız, həmçinin ölkəmizin digər şəhər və rayonlarında, ümumilikdə, 11.400 ədəd şam və küknar ağacı əkilib.

Polis əməkdaşları tərəfindən əkilən ağacların suvarılması həyata keçirilib, onlara aqrotexniki qaydada qulluq göstərilib, ağacların küləkdən qorunması üçün qoruyucu dirəklər basdırılıb.

*A.Qafarov,*
*Z.Hüseynov*

# KOMANDAMIZ QALİB OLDU, KUBOK QAZANDI



**Noyabrın 21-dən 28-dək boks üzrə respublika çempionatı keçirilib. Boks Mərkəzində baş tutan yarışda ölkəmizin şəhər və rayonlarından klub və cəmiyyətləri təmsil edən 29 komandadan 109 boksçu qüvvəsini sınayıb.**

Komanda hesabında DİN İdman Cəmiyyəti turnirdə birinci yeri tutub. Cəmiyyətin Boks bölməsinin müəllimi, əməkdar məşqçi Yadigar Məmmədovun yetirmələri yüksək fiziki və texniki hazırlıq nümayiş etdiriblər.

Təmsilçilərimizdən Ümid Rüstəmov (57 kiloqram) və Asəf Aslanlı (91 kiloqram) qarşılaşdıqları bütün görüşlərdə rəqiblərini məğlub edərək çempion adını qazanıblar.

Finala qədər irəliləyən Ruslan Rüstəmov, Mirəşrəf Kazımzadə, Sürət Qarayev, Yadigar Əliyev və Gülhüseyn Ağazadə müvafiq olaraq öz çəki dərəcələrində gümüş, Malik Həsənov, Kamran Muradov və Fuad Cəfərov isə turnirin bürünc medallarına sahib olublar.

Bu yarışda qalib gələn təmsilçilərimiz ölkəmizin yığma komandasının tərkibinə daxil olaraq beynəlxalq yarışlarda ölkəmizi təmsil etmək hüququ qazanıblar.

Qalib idmançıları və onların məşqçisini qəbul edən DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxetdinova onları bu qələbə münasibəti ilə təbrik edərək, beynəlxalq aləmdə də ölkəmizi layiqincə təmsil etmələrini arzulayıb.

*Zeyni Hüseynov,*
*polis leytenantı*

# SOYQIRIM QURBANLARININ XATİRƏSİ DÜNYADA ANILIR

**9 dekabr Beynəlxalq Soyqırımı Cinayəti Qurbanlarının Xatirəsini Anma Günüdür. Onun keçirilməsində məqsəd soyqırım qurbanlarının xatirəsini anmaqla yanaşı, dünya ictimaiyyətinin diqqətini bu ağır cinayətin təqsirkarlarının cəzalandırılması və onların qarşısının alınması məsələlərinə cəlb etməkdir.**

Azərbaycan xalqı son 200 ildə dəfələrlə faciələrə və soyqırımlara məruz qalıb. Daşnak-bolşevik qüvvələri 1918-ci ilin əvvəllərindən başlayaraq bütün Bakı quberniyasında yaşayan azərbaycanlıların çıxarılması məqsədlərini güdən cinayətkar planın reallaşdırılmasına başlayıb. Minlərlə dinc azərbaycanlı məhv edilib. Soyqırım Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və ölkəmizin digər ərazilərində xüsusi qəddarlıqla həyata keçirilib. Ermənilər Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda 30 mindən çox azərbaycanlını qətlə yetirib, 10 minlərlə insanı öz torpaqlarından qovublar. Yüzlərlə kənd dağıdılıb, evlər yerlə-yeksan edilib.

Ermənilərin törətdikləri digər dəhşətli cinayət - Xocalı soyqırımı həm də dünya tarixinə ən dəhşətli və qəddar soyqırım kimi daxil olub.

Xocalı faciəsinin soyqırım olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapıb. Dünyanın 13 ölkəsi parlament səviyyəsində, ABŞ-ın 22 ştatı parlament səviyyəsində, İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını rəsmən tanıyıb.

Ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə soyqırım aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verib. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

*A.Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# İNKİŞAF VƏ TƏHLÜKƏSİZLİK DİQQƏT MƏRKƏZİNDƏDİR

**Ulu öndərin müəyyən etdiyi, əsas qayəsi xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulan siyasət öz bəhrəsini verir, əldə etdiyimiz uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır.**

**İctimai-siyasi və sosial həyatda baş verən hadisələrə nəzər yetirdikdə görərik ki, ölkəmizdə sabitlik, təhlükəsizlik, əmin-amanlıq hökm sürür. Blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası da yeni inkişaf mərhələsini yaşayır.**

Ölkə Prezidenti cənab İlham Əliyev də bu amili əsas götürərək demişdir: "Şadam ki, Naxçıvanda bütün istiqamətlər üzrə işlər yaxşı gedir. Əminəm ki, bu dinamika gələn il də təmin ediləcək. Əminəm ki, muxtar respublika əhalisinin sosial rifahının yaxşılaşdırılması, respublika qarşısında duran bütün vəzifələrin icrası üçün bütün qüvvələr səfərbər ediləcək və 2020-ci il də Naxçıvan üçün uğurlu olacaqdır".

Naxçıvan Muxtar Respublikasında yüksək iqtisadi fəallığa nail olunması, dayanıqlı təhlükəsizlik və güclü müdafiə sisteminin yaradılması, irimiqyaslı quruculuq işləri və ən əsası əhaliyə yüksək həyat şəraitinin bəxş edilməsi gərgin əməyin, qətiyyətli fəaliyyətin və misilsiz əzmkarlığın təcəssümüdür. Muxtar Respublikada daxili işlər orqanlarının maddi-texniki bazası gücləndirilməklə yanaşı, cinayətkarlığa qarşı mübarizədə də yeni metod və üsullar tətbiq olunur. Bu da öz növbəsində həmin qurumda idarəçilik və təşkilatçılıq işinin təkmilləşməsinə, orqan və hissələrin qarşısında duran mühüm vəzifə və funksiyaların müasir dövrün tələblərinə uyğun, daha məqsədyönlü icrasına, xidməti və icra intizamının möhkəmləndirilməsinə xidmət edir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin kadr potensialının təkmilləşdirilməsi və gənc əməkdaşların hazırlanması zərurəti nəzərə alınaraq 2018-ci ildə Orta İxtisas Polis Məktəbi yaradılıb. Məktəb üçün tikilən və cari ilin oktyabr ayında istifadəyə verilən kompleks üç əsas korpusdan ibarətdir. Kompleksdə xidməti otaqlar, geniş auditoriyalar, elektron lövhəli siniflər, xüsusi hazırlıq fənləri üçün kabinələr, texnologiyanın ən müasir növləri ilə təchiz edilmiş interaktiv atəş hazırlığı sinifi, kitabxana, açıq və qapalı idman meydançaları qurularaq kursant və dinləyicilərin istifadəsinə verilib. Məktəbdə tədrisin təşkili üçün yaradılan şərait kursantların, eləcə də sıravi və kiçik rəis heyətindən olan dinləyicilərin yüksək səviyyədə təhsil alması ilə yanaşı, onlarda müasir texnologiya və informasiya mühitində sərbəst davranışın təşviqinə hesablanıb.

Bundan əlavə, Nazirliyin inzibati binasına üç mərtəbədən ibarət 1152 kvadratmetr sahəsi olan yeni korpus əlavə edilib. Yeni tikilidə xidməti və müxtəlif təyinatlı otaqlar, yeməkxana, xidməti avtomobillərin saxlanılması üçün qaraj istifadəyə verilmişdir. Müasir standartlara cavab verən yeni tikili bütün zəruri kommunikasiyalarla, təchiz edilib. Ərazidə abadlaşdırma, yaşıllaşdırma və xarici işıqlandırma işləri aparılıb, ümumilikdə, Nazirliyin inzibati binasının bütün otaqları, zirzəmisi və fasad hissəsi əsaslı təmir edilib. Avtoparka daxil olmuş avtonəqliyyat vasitələri xidməti fəaliyyətin təşkilinin səmərəliliyini daha da artırıb, əməkdaşların sosial-rifah halının yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Son illər qarşıya qoyulmuş tələb və tapşırıqlar daxili işlər orqanları tərəfindən qüsursuz icra olunub. Təqribən, 20 il bundan əvvəlki dövrü müqayisə etdikdə aydın olur ki, 1999-cu ildə Muxtar Respublikada 284 cinayət hadisəsi qeydə alınmışdırsa, 2019-cu ilin ötən dövründə bu rəqəm 17 olub. Qəsdən adamöldürmə ilə bağlı 1999-cu ildə 8, qəsdən adam öldürməyə cəhdlə bağlı 1, qəsdən sağlamlığa zərərvurmaqla bağlı 20, oğurluqla bağlı 20, xuliqanlıqla bağlı 21 cinayət hadisəsi qeydə alınıb. Son illərdə aparılan profilaktik tədbirlərin nəticəsidir ki, 2019-cu ilin ötən dövründə bu qəbildən olan cinayətlər, ümumilikdə, cəmi 4 fakt təşkil edib. Axtarışda olan şəxslərin saxlanılması 100 faizə çatdırılıb. 90-cı illərin əvvəllərində hər il 100-dən artıq ağır və xüsusilə ağır cinayətlər baş verirdisə,



2019-cu ilin ötən dövründə bu qəbildən yalnız 1 cinayət qeydə alınıb.

Cinayətkarlığın bütün forma və təzahürlərinə qarşı qətiyyətli mövqe tutan muxtar respublikanın daxili işlər orqanları qanunla üzərinə düşən vəzifələri yerinə yetirməklə, iqtisadi inkişafın mühüm şərti olan sabitliyin təminatı üçün bütün zəruri tədbirləri həyata keçirmiş, xalqın və dövlətin sadiq keşikçisinə çevrilmiş, böyük ictimai etimad qazanmışdır. Bu mənada, insan amilinin daim ön planda olduğu Naxçıvan Muxtar Respublikasındakı sabitlik, əmin-amanlıq, birlik, həmrəylik və davamlı inkişaf nümunəyə çevrilmişdir.

Ərzaq, enerji və müdafiə təhlükəsizliyinin, ictimai asayişin və sabitliyin təmin olunması blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının ən mühüm inkişaf göstəricisi olmaqla yanaşı, həm də bu qədim diyarda ulu öndərin siyasi xəttinə sonsuz sədaqətin və onun ideyalarının uğurla davam etdirilməsinin bəhrəsidir.

*Yusif Həsənov,*
*Naxçıvan Muxtar Respublikası DİN-in*
*Veteranlar Şurasının sədri*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 100 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında keçirilir. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş, Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayan və qeydiyyatda olan şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin təyinatı zamanı ilk növbədə həmin rayonda yaşayış şəraiti olanlara üstünlük veriləcək və təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu il noyabr ayının 18-dən dekabr ayının 18-dək **http://www.mia.gov.az/index.php?/az/content/29799/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar İdarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***- şəxsiyyət vəsiqəsi;***
***- ali təhsil haqqında diplom;***
***- hərbi bilet;***
***- əmək kitabçası (olanlar üçün);***

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

***"Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları", test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin www.mia.gov.az ünvanlı Veb saytında yerləşdirilmişdir.***

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 590-92-37; (012)-590-80-66.(012) 590-93-27; (012) 590-93-45; 012) 590-93-64; (012) 590-95-23.**

# DAXİLİ İŞLƏR ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN TEST İMTAHANININ PROQRAMI

Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

Qanunvericilik aktları və nəzəri bilik sahələri:
-Azərbaycan Respublikasının Konstitusiyası.
-Dövlət və hüquq nəzəriyyəsi.
-Cinayət hüququ.
-Cinayət prosesi.
-İnzibati hüquq.
-Kriminalistikanın əsasları.
-Kriminalogiyanın əsasları.
-BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi.
-«Polis haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu.
- «Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu.

# DAXİLİ İŞLƏR ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜÇÜN MİNİMAL FİZİKİ HAZIRLIQ NORMATİVLƏRİ

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə müvafiq olaraq, daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslərin fiziki hazırlıq səviyyəsi müəyyən edilmiş aşağıdakı tapşırıqlar və normativlər əsasında yoxlanılır:

Qaçış: 100 (yüz) metrə – 15 saniyə, 1000 (min) metrə – 4 dəqiqə;

Turnikdə dartınma:
***- çəkisi 80 kiloqramadək -*** 10 dəfə,
***- çəkisi 80 kiloqramdan yuxarı -*** 6 dəfə;

***Qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi*** – 20 dəfə;

***Arxası üstə uzanmış halda gövdənin döşəmədən qaldırılıb-endirilməsi*** –20 dəfə.

# QƏHRƏMAN ÖMRÜ...



***Yusif Əliyev 2 dekabr 1969-cu ildə Bakının Qobustan qəsəbəsində anadan olub. Qəsəbədəki 223 saylı orta məktəbi bitirdikdən sonra bir müddət Qobustan Avtomobil Nəqliyyatı İdarəsində işləyib. Ordu sıralarında hərbi xidmətdən sonra doğma Vətənə qayıdıb, daxili işlər orqanlarında Post-Patrul Xidmətinə qəbul olunub. Az müddət ərzində o, iş yoldaşlarının sevimlisinə çevrilmişdi.***

Polis əməkdaşları Dağlıq Qarabağ münaqişəsinin başladığı ilk gündən torpaqlarımızın müdafiəsində fəal iştirak edirdilər.

1991-ci ilin fevralında Yusif Əliyev Goranboyda ilk döyüş sınağından çıxır. Silahlı erməni quldurları Buzluq, Mənəşid və Erkəc kəndləri tərəfdən pusqu quraraq tez-tez basqınlar edir, yolları kəsirdilər. Fevralın 24-də səhər sübhdən 500-ə yaxın erməni quldur Mənəşid kəndinə hücuma keçmişdi. Qüvvələr qeyri-bərabər idi. Polis dəstəsi öz əlverişli mövqelərini qoruyub saxlamağa çalışmaqla yanaşı, düşməni planlı şəkildə yaxına buraxır və müxtəlif səmtlərdən onları hədəfə alırdılar. Əvvəlcə hər şey nəzərdə tutulduğu kimi gedirdi. Lakin düşmən xeyli itki versə də, geri çəkilmək istəmirdi. Dəstənin döyüş sursatı tükənmək üzrə idi. Bunu görən Yusif Əliyev 14 nəfərdən ibarət bir qrup yaradaraq əlbəyaxa döyüşə atıldı. Gözlənilməz hücumdan çaşbaş qalan ermənilər pərən-pərən düşdülər...

Həmin ilin sentyabrında düşmən Buzluq kəndinə hücuma keçmişdi. Ölüm-dirim savaşına girən dəstədən xəbər gəlir ki, əsgərlərin sursatı tükənib. Yusif güllə yağışı altında Buzluğa sursat çatdırmağa müvəffəq olur. Lakin bu, onun həyatı bahasına başa gəlir...

Yusif Əliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib.

Ağsu rayonunun Rəhimli kəndində dəfn edilib. Qobustan qəsəbəsindəki 195 saylı orta məktəb onun adını daşıyır. Məktəbdə büstü qoyulub.

*Natiq Abdullayev,*
*polis kapitanı*

**Dövrümüzdə informasiya mənbələri içərisində sosial şəbəkələrə maraq gündən-günə artmaqdadır. Günümüzün tələb və çağırışlarına hər zaman adekvat reaksiyası ilə seçilən Daxili İşlər Nazirliyində də bu tendensiya nəzərdən qaçmamış və artıq uzun müddətdir ki, əhalinin məlumatlandırılmasında məhz sosial şəbəkələrin imkanlarından geniş istifadə edilir.**

# İCTİMAİYYƏTƏ DAHA DA YAXIN

Fəaliyyəti ölkə ictimaiyyətinin diqqət mərkəzində olan və sosial şəbəkələr üzərindən də izlənilən Dövlət Yol Polisi xidməti haqqında informasiyanın əhali tərəfindən daha əlçatan olması üçün **"dyp.polisazerbaycan"** instagram səhifəsi artıq dekabrın 6-dan etibarən fəaliyyətə başlayıb.

Baş Dövlət Yol Polisi İdarəsinin sosial şəbəkə istifadəçilərinə müraciətində bildirilir ki, **"dyp. polisazerbaycan"** instagram səhifəsi ölkəmizdə yol hərəkəti mədəniyyətinin daha da inkişaf etdirilməsinə, əhalinin bu sahədəki qaydalar barədə maarifləndirilməsinə, hərəkətin təhlükəsizliyinin təmini sahəsində həyata keçirilən tədbirlər haqqında daha geniş və çevik şəkildə məlumatlandırılmasına xidmət edəcək.

# MƏKTƏBLİLƏRLƏ BİR ARADA

**Yevlax Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Salamabad kənd tam orta məktəbində şagirdlərlə "Narkomaniya ümumbəşəri bəladır", "Erkən nikah və onun fəsadları" və "Dini radikalizmə qarşı mübarizə" mövzularında görüş keçirilib.**



Tədbirdə çıxış edən RPŞ-nin rəisi, polis polkovniki Elnur Mehdiyev şagirdlərə narkomaniya və onun fəsadları ilə bağlı geniş məlumat verib, "ağ ölüm"ün ailə və cəmiyyət üçün yaratdığı ciddi problemləri diqqətə çatdırıb. Rəis qeyd edib ki, narkomaniyanın qarşısının alınması üçün dövlət orqanları, ictimai təşkilatlar, təhsil işçiləri və valideynlər birgə mübarizə aparmalı, bu mövzuda maarifləndirici tədbirlər davamlı keçirilməlidir. Hər kəs bu istiqamətdə görülən işlərdə fəal olmalı, hüquq-mühafizə orqanları tərəfindən keçirilən profilaktiki tədbirlərdə iştirak etməlidir.



Daha sonra E. Mehdiyev erkən nikahın səbəb olduğu problemlərdən söhbət açaraq, hər bir uşağın yaşamaq, təhsil almaq, müdafiə olunmaq hüquqları olduğunu vurğulayıb. Qeyd edib ki, hər bir şagird öz hüquq və vəzifələrini bilməli, zərərli vərdişlərdən uzaq durmalıdır. Yeniyetmə və gənclərimiz yüksək təhsil almalı, müasir informasiya texnologiyalarından istifadə etməyi bacarmalı, idmanla məşğul olmalı, milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda böyüməli, vətənpərvər kimi hər zaman ölkəmizin müdafiəsinə hazır olmalı, cəmiyyətdə sağlam fərdə çevrilməlidirlər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yevlax rayon şöbəsinin rəisi, polkovnik-leytenant Elməddin Cəfərov dini radikalizmin formalaşmasından və insanlar arasında yaratdığı təsirdən bəhs edib. Cəmiyyətdə əmin-amanlığı, sabitliyi pozmağı özünə məqsəd seçən belə qruplaşmaların qurbanları əsasən gənclərdir. Gəncləri radikal qruplaşmaların yalanlarına, xurafat dolu vədlərinə, təxribatçılıq əməllərinə uymamağa və bütün bunlarla mübarizədə valideynləri fəal olmağa çağırıb.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*





Dekabrın 10-da Binəqədi rayonu ərazisindəki "EuroHome" tikinti materialları bazarında yanğın baş verib. Bu zaman dərhal hadisə yerinə gələn polis əməkdaşları lazımi təhlükəsizlik tədbirlərini görüb, yollarda hərəkətin fasiləsizliyini təmin edib, vətəndaşlara məxsus əmlakların çıxarılmasında və yanğından qorunmasında onlara lazımi kömək göstəriblər.

***Əməkdaşımız, polis leytenantı Zeyni Hüseynovun hadisə yerindən çəkdiyi fotoları təqdim edirik.***








# UĞURLU ƏMƏLİYYAT

**Şəmkir Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində külli miqdarda narkotik vasitə dövriyyədən çıxarılıb.** Narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən rayonun Qaracaəmirli kənd sakini, əvvəllər məhkum olunmuş 25 yaşlı Tural Məmmədli saxlanılaraq polis şöbəsinə gətirilib və onun üzərinə baxış keçirilən zaman üzərindən iki ədəd kibrit qutusunda və bir ədəd ağ rəngli kağız bükümdə ümumi çəkisi 14.672 qram narkotik vasitə olan qurudulmuş "marixuana" aşkar olunub.

Davam etdirilən əməliyyat-axtarış tədbirləri nəticəsində T. Məmmədliyə narkotik vasitə satan şəxsin həmkəndlisi, əvvəllər məhkum olunmuş 1985-ci il təvəllüdlü Şəhriyar Razyev olduğu müəyyən edilib. Onun və qaynanasının evinə baxış keçirilən zaman ümumilikdə 72 ədəd kibrit qutusunda və 6 ədəd sellofan torbada ümumi çəkisi 1 kiloqram 200 qrama yaxın narkotik vasitə olan qurudulmuş "marixuana" aşkar olunaraq götürülüb.

İlkin dindirmə zamanı Ş. Rzayev narkotik tərkibli bitkini satmaq məqsədi ilə əkdiyini bildirib.

*Eşqin Qasımov,*
*polis baş leytenantı*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ VAKANT POST-PATRUL XİDMƏTİNİN POLİS NƏFƏRİ (KİÇİK RƏİS HEYƏTİ) VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

2019-cu il dekabr ayının 27-də saat 08.30-da, Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən Abşeron, Salyan, İsmayıllı, Ucar, Kürdəmir, Şabran, Siyəzən, Xızı, Masallı, Şəmkir, Lənkəran şəhər, rayon polis orqanlarında və Bakı şəhər Baş Polis İdarəsinin ərazi polis qurumlarında vakant post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmətə qəbulla bağlı Bakı şəhəri Nobel prospekti 69 ünvanında yerləşən Əlahiddə Çevik Polis Alayında sıra baxışı keçiriləcəkdir. Sıra baxışında yalnız qeyd olunan rayonlarda və Bakı şəhərində yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, aşağıdakı şərtlərə cavab verən şəxslər iştirak edə bilərlər:

- Ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Sıra baxışına gələnlər şəxsi sənədlərini (şəxsiyyət vəsiqəsi və hərbi bilet) təqdim etməlidirlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaqdır.

Kompyuter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcəkdir.

Əlavə olaraq nəzərə çatdırılır ki, boyu 180 santimetrdən aşağı olan və müsabiqənin digər şərtlərinə uyğun gələnlər namizədlər keçid məntəqəsində yoxlanılaraq sıra baxışına iştiraka buraxılmayacaqlar.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-94-12; (012)-590-93-45. (012)-590-92-37; (012)-590-97-52;**

***Azərbaycan Respublikası***
***Daxili İşlər Nazirliyi***

# SOYĞUNÇULUQ ETMİŞDİ...

Astarada polis əməkdaşlarının ayıq-sayıqlığı və çevikliyi sayəsində qadına qarşı soyğunçuq edən şəxs saxlanılıb. Astara şəhər sakini Fəqan Məmmədov market bazar ərazisində rayonun Ərçivan qəsəbə sakini P.Zeynalovanın içərisində pul və mobil telefon olan çantasını alaraq qaçıb. Lakin faktı törədən şəxs çox da uzağa gedə bilməyib. F. Məmmədov ərazidə xidmət aparan Astara Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti tağımının əməkdaşları tərəfindən isti-izlərlə saxlanılıb. Polis şöbəsinə gətirilən həmin şəxsin üzərindən bir bükümdə narkotik vasitə olan heroin və soyğunçuluq yolu ilə əldə etdiyi 357 manat pul, "İphone" markalı mobil telefon aşkar edilərək götürülüb.

Faktla bağlı Astara RPŞ-nin istintaq bölməsində araşdırma aparılır.

*Məhəmməd Rzayev,*
*polis baş leytenantı*

# Dekabrın 4-dən 10-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 118 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 111 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 223, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1, borclu şəxs qismində axtarışda olan 115 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 17 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 20 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 59 fakt müəyyən edilmişdir.

İnterpolun Milli Mərkəzi Bürosunun rəisi Əlaslan Ağayev və şəxsi heyəti Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti iş yoldaşları Munir Orucova atası
**MUSTAFA ORUCOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maddi-Texniki Təminat Baş İdarəsinə bilavasitə tabe olan Mətbəənin rəisi Zaur Hüseynov və şəxsi heyəti "Polis" qəzetinin redaktoru Elşad Hacıyevə anası
**ZAHİDƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İnterpolun Milli Mərkəzi Bürosunun rəisi Əlaslan Ağayev və şəxsi heyəti Daxili Təhqiqatlar İdarəsinin rəisi Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səbail RPİ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yasamal RPİ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi Fəqan Azadəliyev və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Azər Muradov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zərdab RPŞ-nin rəisi Azər Əfəndiyev və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yardımlı RPŞ-nin rəisi Arif Babayev və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Oğuz RPŞ-nin rəisi Vüqar Əliyev və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəbrayıl RPŞ-nin rəisi Araz Şahverdiyev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik